# Bəstəkar T. Quliyevin mahnıları üzərində iş

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetin*
*baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** p.ü.f.d., dos. K.R. Sədirxanova,
p.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözlər:** tələbə, konsertmeyster, akkompanement, fortepiano, mahnı
**Ключевые слова:** студент, концертмейстер, аккомпанемент, фортепиано, песня
**Key words:** student, concertmaster, accompaniment, piano, song

Bəstəkar T. Quliyevin mahnıları Azərbaycan musiqisinin yeni müxtəlif janrlarının əmələ gəlməsində və inkişaf etməsində mühüm rol oynayır. Onun mahnıları ilə tanış olmayan adam tapmaq çətindir. Onlar həmişə bəşəri və sadədir və xalqımız tərəfindən sevilə-sevilə dinlənilir və oxunur. Bu sadəlik kamil sənətkarlığın, ifadə vasitələrini diqqətlə seçməyin bəhrəsidir. Quliyevin mahnıları müasirliyini, gənclik təravətini daim hifz edəcəkdir, çünki həyatının nəbzini həssaslıqla duyan bəstəkar öz xalqının nəcib keyfiyyətlərini görürdü və onu musiqidə göstərirdi.

T. Quliyevin mahnıları xalq ənənələrini müasirliklə ahəngdar bir şəkildə birləşdirir. Mahnıların melodiyaları aydın, obrazlı və səmimidir. Dinləyici qəlbinin ən incə tellərini ehtirasa gətirir. Mahnılar onun yaradıcılığında aparıcı qüvvələrdəndir və Azərbaycan musiqi xəzinəsinə incilər bəxş etmişdir. Hələ gənclik illərindən mahnı onun üçün zəruri yaradıcılıq tələbatına çevrilmişdir. Onun kino musiqisində də mahnılar əsas dramaturji yer tutur və onların ömrü filmlərdən daha uzun olmuşdur. Həmin kinofilmlərin müvəffəqiyyətində T. Quliyevin parlaq musiqisinin xüsusi yeri var. Bəstəkarın Azərbaycan mahnısının inkişafında rolu böyükdür. Xalq mahnı yaradıcılığı zəminində bəstəkar müasir mahnının üslub cizgilərini işləmişdir.

İstedadlı bəstəkar mahnıların melodiya üslubunun təbiətini çox incə duyaraq parlaq, ifadəli intonasiyalar tapır. Özü də, mətnin detallarını qabartmayaraq, daha çox poetik obraz və əhval-ruhiyyəni yaradır. Böyük zövq və bədii ölçü hissi ilə melodiyalarına reqitativ-deklamasiya ünsürləri daxil edir. T. Quliyev mahnılarında instrumental müşayiətə böyük diqqət yetirir. O, mövzu baxımından müxtəlif olan iki yüzdən artıq mahnı yaratmışdır. Onun bütün mahnıları gerçəklik, geniş kütlələrin hiss və əhval-ruhiyyəsi ilə sıx bağlıdır.

Müşayiət yalnız sadəcə bir fon olmayıb, obraz funksiyası daşıyır və musiqinin əhəmiyyətli komponenti kimi çıxış edir. Bəstəkarın yaradıcılığında əməyi vəsf edən mahnılar çoxdur. Onların arasında Xəzər neftçilərinə həsr olunmuş əsərlər sevilib oxunur. Bir çox mahnılarında gənclik mövzusuna müraciət edir və gənclərin hisslər aləmini və səmimiliyini, çılğınlığını lirizmlə ifadə edir. Əsərlərin bir çoxunda müxtəlif tərzdə, lakin həmişə həqiqi və səmimi məhəbbət haqqında oxunur. Eyni zamanda müxtəlif xalqların yaradıcılığına diqqət yetirir. Onun hind, ərəb, bolqar xalq mahnıları üzərində işləmələri də çox maraqlıdır.

T. Quliyev Azərbaycan mahnısını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Onun mahnıları təkcə Azərbaycanda deyil, xaricdə də şöhrət qazanaraq sevilə-sevilə oxunur. Hələ 40-cı illərdən bu günə kimi mahnılar çap olunur və hər azərbaycanlının daima yaddaşındadır. İllər keçir, lakin mahnılar təravətini, müasirliyini, səmimiliyini qoruyub saxlayır. T. Quliyevin mahnıları mövzu cəhətdən rəngarəngdir. Onun mahnı yaradıcılığının janr əlvanlığı məhz

mövzu rəngarəngliyindən gəlir. Müxtəlif janrda mahnıları lirik ruh birləşdirir. Lakin mahnıların lirik qəhrəmanları eyni deyil, amma hamısı min bir tellə doğma Azərbaycana, onun həyatına bağlıdır. Bu mahnıların melodiyası emosional təsir qüvvəsi və məna daşıyıcısıdır. Bəstəkar mahnını romansa yaxınlaşdıran maraqlı geniş kompozisiyalar tapır. Variantlılıq prinsipi melodiyanın əsas inkişaf metodudur. Kupletdən Rupletə elə bil ki, melodiyanın yeni cəhətləri üzə çıxır, tematizm axını fasiləsiz inkişaf təəssüratı yaradır. Musiqi inkişafı, improvizasiya melodiyada o qədər zəngindir ki, mahnılarda forma yaradılmasının cəhətlərini üstələyir. Kulminasiyada melodiya yuxarı və aşağı musiqi materialın hərəkəti ilə fərqlənir. Tematik materialın "bitişdirici" elementlərinə bəstəkar diqqət yetirir, müəyyən intonasiya dönümlərini əsər boyu davam etdirir.

T. Quliyevin mahnı yaradıcılığının ən xarakterik cizgilərindən biri onun harmonik və ladtonallıq dilinin ifadə olmasıdır. Mahnıların sadəliyi, asan yadda qalması, onların formaca sadə olması ilə əlaqədardır. Sir deyil ki, bir çox populyar mahnıların ömrü o qədər də uzun olmur. Onlardan yalnız bir neçəsi zamanın sınağından çıxa bilir. Lakin T. Quliyevin elə mahnısı yoxdur ki, yeni-yeni qəlbləri fəth etməsin.

Konsertmeyster sinfində biliyə nail olmağın əsasını vokal bədii əsərlərin öyrənilməsi təşkil edir. Proqram üzrə tələbələr 10-15 mahnı öyrənməlidir. Repertuarın genişlənməsi getdikcə daha ciddi əsərlərin ifasından ibarətdir. Bu mənada T. Quliyevin mahnılarından istifadə etmək olar, onlar proqrama da daxil olunur. Bununla əlaqədar bir neçə mahnının təhlilini etmək istərdim ki, konsertmeyster sinfində əsərin üzərində işin məzmunu daha aydın təsəvvür yaratsın. T. Quliyev S. Vurğun, N. Xəzri, R. Rza, S. Rüstəm, Z. Cabbarzadənin sözlərinə mahnılar bəstələyib.

T. Quliyevin mahnıları mövzu cəhətdən rəngarəngdir. Onların arasında Vətən müharibəsinə həsr olunan mahnılar. Xəzər neftçilərinə, gənclərin mövzusuna, məhəbbət, Bakı, Azərbaycan haqqında və b. mahnıları sevilib oxunur. Tematik materialın "bitişdirici" elementləri ilə, melodiyada müəyyən intonasiya dönümləri ilə diqqət cəlb edən "Qəmli" mahnıdır. Bu mahnı 50-ci illərdə çəkilmiş "Onu bağışlamaq olarmı?" kinofilmlərdəndir. Bu əsər romans tiplidir, akkomponomentə imitasiya elementləri maraqlıdır. "Qəmli mahnı" sözləri Z. Cabbarzadənindir. Tematik inkişafın və bitkinliyin gözəl nümunəsidir. Dörd xanəli giriş f moll da bizim təsəvvürümüzdə qəmgin obraz yaradır. Mahnı dörddə iki ölçüdə Adajio tempində yazılıb. Melodiyanın əsası sekunda intonasiyasından ibarətdir. Bu intonasiya mahnının dramaturgiyasında mühüm rol oynayır. O, bir qədər dəyişdirilmiş şəkildə kulminasiyada səslənir. Variantlıq prinsipi melodiyanın əsas inkişafını təşkil edir. Kupletdən kupletə elə bil melodiyanın yeni cəhətləri üzə çıxır.

Fortepiano müşayiəti f mollun arpedşiosından ibarətdir. Sağ əldə musiqi inkişafı aşağı enən sektentsiya üzərində qurulub. Birinci hissədə melodiya piano səslənir. Kulminasiyada dinamika artır və melodiya mettso forte də keçir. Repriza birinci hissənin bir qədər dəyişdirilmiş variantıdır. Burada əvvəlki iki xanə səslənmir, melizm artır, müşayiət təkcə arnedjio üzərində qurulub. Dörd xanəli intermediyadan sonra əsərin tam təkrarı səslənir. İntermediya kreşendodan iki forteya çatır. Bu qəhrəmanın həyəcanı içində olmağını göstərir. Üç xanəli tamamlıq əsəri bitirir. Tələbə mahnının melodiyasını və sözlərini öyrənəndən sonra müşayiəti öyrənməlidir (müşayiət sadə və aydındır). Sol əldə arpedjio geniş şəkildə verilib, ona görə tələbə onu ayrı öyrənməlidir ki, baslar halış səslənsin və sonra ifaya sağ əlinin partiyasını əlavə etməlidir. İntermediyada sol əldə akkrodlar tenuto çalınmalıdır və xanənin zəif hissəsində pauzalara diqqət etdirməlidir. Tələbə bilməlidir ki, mahnını ifa edərkən melodiyada fasiləsiz inkişaf yaratmalıdır.

Azərbaycan xalq mahnılarının və fokstrotun ritmik xətti prinsiplərinin uyğunlaşmasına "Zubeyda" mahnısında rast gəlmək olar. Burada ritm cəhətdən mürəkkəb olan melodiya və müşayiəti kəskin caz ritmlərinə yaxındır. Həmin mahnıda caz ritminə yaxın olan sinkonalar və Azərbaycan musiqisinə xas olan metroritmi orjinal səslənir. Mahnı fa maşorda cəld tempdə yazılıb, oynaq xarakterli giriş obraz haqqında təsəvvür yaradır. Mahnı üç hissəli formada yazılıb, sonluq ikinci hissənin tematizmi üzərində qurulub. Melodiyanın improvizasiyası və musiqi inkişafı o qədər zəngindir ki, forma strukturun cəhətlərini üstələyir. Müşayiəti iki əl arasında bölünüb, caz xarakteri daşıyır. Reprizada melodiya sekvensiya üslubu ilə inkişaf edir və bir qədər dəyişilir. Tələbə ritmik cəhətdən hazırlıqlı, qabiliyyətli olmalıdır. Zubeyda ritmik kontrast üzərində qurulub, romans xarakterli mahnıdır.

T. Quliyevin ən səmimi lirik mahnılarından biri "Sənə də qalmaz" mahnısı R. Rzanın sözlərinə yazılıb. Mahnının melodiyası xalq musiqisinin Ən gözəl cizgilərini özündə birləşdirir. Mahnının birinci hissəsində melodiya melizrlərlə zənginləşmişdir, mi minorda mülayim tempdə səslənir, sol əldə müşayiətdə sinkonalar tanqo rəqsin ritmini xatırlayır və musiqi materialı mi minorun arpedjio vəziyyətində inkişaf edir. Tələbə ritmik cəhətdən diqqətli olmalıdır və sinkopaları dəqiq ifa etməlidir. Orta hissəsində kulminasiyada melodiya aşağı hərəkəti ilə fərqlənir. Bura da melodiyada materialı senkvensiya üslubu ilə inkişaf edir və melodiyaya daxil olon qammadan sonra təkrar səslənir. Üçüncü hissə birinci hissənin tematizmi üzərində qurulub. Tələbə bilməlidir ki, bu neprizadır və əsər üç hissəli formasında yazılıb. Mahnının melodiyasında hissələr arasında musiqi materialı daxil olan qammalara rast gəlmək olar. Tələbə o qammaları ayrıca öyrənməlidir ki, melodiyanı sərbəst ifa etməyə qadir olsun. Bu əsər incə lirik romansın xarakterini özündə daşıyır.

T. Quliyevin "Axşam mahnısı", "Bakı haqqında mahnı", "Gəlmədi" kimi mahnıları vals janrında yazılıb. "Gəlmədi" sözləri O. Xasməmmədovun mülayim tempdə, dörddə üç ölçüdə, sol majorda girişlər başlayır. Girişdə as dur epizoddan sonra melodiya birinci tonallığa qayıdır. Bu rəqsə dəvət kimi səslənməlidir. Giriş iki hissəlidir. Tələbə bilməlidir ki, bu epizod sakit tempdə çalınmalıdır. Mahnının birinci hissəsində sağ əldə lirik melodiya səslənir Period həcmində və həmin dövrün bir ton aşağı hərəkətdə sekvensiyası səslənir. Sol əldə oktavalı baslar akkordlarla melodiyanı müşayiət edir. Tələbə sol əli ayrıca öyrənməlidir ki, baslarda ifa zamanı xalis səslər eşidilsin. Orta hissədə yeni melodiya birinci melodiyanın davamı kimi səslənir və sonra reprizada həmin mövzu diqqəti cəlb edir. Koda orta hissə tematizmi üzərində bir qədər dəyişən vəziyyətdə qurulub. Bu mahnı forma cəhətdən rus klassik bəstəkarlarını vals janrın üslubunda yazılıb. Tələbə ifa zamanı əsəri bütövlüklə ifa etmək haqqında düşünməlidir. T. Quliyevin mahnılarını öz müşayiəti ilə ifa edəndə tələbə müxtəlif hazırlıq səviyyəsinə nail olur, öz musiqi qabiliyyətlərini inkişaf etdirir.

Konsertmeyster sinfində T. Quliyevin mahnıları üzərində işləyərkən tələbə öyrənir:

1. Mahnıları rəngarəng, zəngin tematizmi ilə fərqlənir, melodiya lirik, ən xarakterli cizgilərindən biri harmonik və lad-tonallıq dilinin ifadəliyidir. Tematizm fasiləsiz inkişaf təəssüratı oyadır. Variantlıq prinsipi melodiyanın əsas inkişaf metodudur. Melodiya improvizasiya ilə zəngindir. Qamma və apredjio melodiya daxil olduğuna görə diqqətli ifa tələb edir.

2. Ritm zəngindir: bəzən caz, bəzən fokstrot ritminə yaxındır, sinkopalarla seçilir, çox vaxt ritmdə əvvəlcədən obrazın təsəvvürü yaranır.

3. Mövzu cəhətdən rəngarəngdir. Janr əlvanlığını lirik ruh birləşdirir.

4. Giriş və koda mahnının müxtəlif tematizmi üzərində qurulub: giriş adətən birinci hissənin tematizmin hansısa elementində, koda isə orta hissənin hansına tematizminin elementində qurulub.

5. Mahnıların bəşəri və sadə olması müasir və sevə-sevə daima yaddaşda qalması tələb edir ki, ifa yüksək səviyyədə olsun.

**Məqalənin aktuallığı.** Aktuallıq ondan ibarətdir ki, T. Quliyev mahnıların öyrənilmə prosesində ən vacibi-mətnin düzgün oxunmasıdır. Musiqi mətninin düzgün oxunması xalq mahnıların bədii obrazının açılmasında mühüm rol oynayır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, T. Quliyev mahnıları müasir pianoçularının repertuarına daxil edilməsi bununla əlaqədardır ki, bu mahnılar qədim dünya musiqisinin parlaq nümumələridir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Təcrübədə məqalənin məzmununun istifadəsi T. Quliyev mahnıların düzgün interpretasiyasının tapılmasında tələbə və müəllimlərin köməkliyinə gələ bilər.

## Ədəbiyyat

1. О работе концертмейстера. Сборник статей. М., 1979.
2. История Азербайджанской музыки. Баку, 1992.
3. Касимова С., Абдуллаева З. С песней по жизни. Азербайджан. Баку, 1995.
4. Совершенствование подготовки учителя музыки на музыкально-педагогическом факультете. Сборник статей. Свердловск, 1983.

**И.А. Ахмедова**

## Работа над песнями композитора Т. Кулиева

### Резюме

Во время обучения студентов, одно из важнейших мест занимает изучение песен Тофика Кулиева. Основным музыкальным материалом являются сборники его песен, которые признаны базовыми в национальной музыкальной литературе. Освоив этот пласт музыки, пианист приобретает определенный профессиональный уровень, что в свою очередь может позволить ему перейти на следующую ступень.

**I.A. Ahmadova**

## Work on the songs of the composer T. Kuliev

### Summary

During the training of students, one of the most important places is the study of Tofik Kuliev's songs. The main musical material is collections of his songs, which are recognized as basic in national musical literature. Having mastered this layer of music, the pianist acquires a certain professional level, which in turn can allow him to move to the next stage.

**Redaksiyaya daxil olub:** 01.07.2022